# COĞRAFİYA

**UDK-911.3**

## AZƏRBAYCAN QƏSƏBƏLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**V.Ə.ƏFƏNDİYEV**
***Bakı Dövlət Universiteti***
***Fira-9@rambler.ru***

*Məqalədə müasir dövrdə Azərbaycan qəsəbələrinin inkişafına və formalaşmasına təsir edən amillər təhlil olunur. Azərbaycan qəsəbələrinin inkişaf xüsusiyyətlərini müəyyənləşdi-rərək mövcud problemlərin həlli məqsədilə bağlı onların ərazi təşkilinə dair müvafiq təkliflər verilir.*

**Açar sözlər:** Azərbaycan, qəsəbə, əhali, Dövlət Proqramı, məskunlaşma

Müasir dövrdə ölkədə baş verən siyasi, iqtisadi və sosial dəyişikliklər qəsəbələrin inkişafına da öz təsirini göstərir. Belə ki, Azərbaycanın qəsəbələri öz inkişafında yeni mərhələyə keçir. Bu isə öz növbəsində bir sıra problemlər yaradır.

Qəsəbələr Azərbaycanın yaşayış məntəqələrinin 5,5%-ni təşkil edir, respublika əhalisinin 16%-ni özündə cəmləyib. Göründüyü kimi, qəsəbələr Azərbaycanın ərazi inzibatı bölgüsündə az bir pay təşkil etsə də, ölkənin aparıcı təsərrüfat sahələrində rolu çox böyükdür. Qəsəbələrin ölkənin idarəedici orqanında da rolu böyükdür. Hər bir qəsəbədə icraedici orqanın və bələdiyyələrin nümayəndəlikləri vardır və qəsəbələr ölkənin mərkəzi icraedici orqanlarının işində yaxından iştirak edirlər.

Azərbaycanda urbanizasiya prosesi 1870-ci illərdə «neft bumu» dövrünə təsadüf edir. Məhz o dövrdən başlayaraq ölkədə «şəhərləşmə» prosesi böyük vüsət almış, şəhərlərin sayı və əhalisi durmadan artmışdır. Ona görə də bu prosesin nəticəsi olaraq Azərbaycanda 1930-cu illərdə yeni tipli şəhər məskənləri-qəsəbələr əmələ gəlməyə başlamışdır. Bu qəbildən olan yaşayış məntəqələri öz tarixi inkişaf mərhələlərində, neft və qazın hasilatı və emalı ilə yanaşı, kənd təsərrüfatı məhsullarının emalı, pambıqtəmizləmə zavodlarının, konserv (meyvə-tərəvəz və balıq) sənayesi müəssisələrinin, balıq vətəgələrinin, daş və qum karxanalarının yaxınlığında, kurort-rekreasiya və turizm

mərkəzlərində, dəmir yolu stansiyalarının ətrafında yaranmışdır. Nəhayət, inkişaf dövrlərini keçən bu yaşayış məntəqələri növbəti mərhələyə qədəm qoyublar. Belə ki, əhalisi sürətlə artan, təsərrüfat sahələrinin böyük potensialı olan qəsəbələr şəhər statusu alır, öz daşıdıqları funksiyaları genişləndirən yaşayış məntəqələri qəsəbəyə çevrilir, perspektivi olmayan yaşayış məntəqələri isə tənəzzülə məruz qalaraq ləğv olunurlar.

Azərbaycanda qəsəbələrin əmələ gəlməsi əsasən iki istiqamətdə olub:

1) Neft hasilatı və onun emalı olan ərazilərdə yaranan qəsəbələr;

2) Kənd yaşayış məntəqələrinin inkişaf edərək qəsəbələrə çevrilməsi.

Qeyd etmək lazımdır ki, qəsəbə anlayışı və onların əmələ gəlməsi SSRİ dövrünə təsadüf edir. Bu yaşayış məntəqələri kəndlərdən kəskin fərqlənərək (bəzi hallarda əhalisinin ümumi sayına görə istisna olmaqla) yerinə yetirdikləri funksiyalarına və əhalisinin məşğuliyyətinə görə şəhər yaşayış məntəqələri ilə eynilik təşkil edirlər. Yəni şəhərlərdə olan həyat tərzi, şəhər mühiti və əhalinin məşğuliyyəti qəsəbələrdə də müşahidə edilir. Bu baxımdan fərqlər ondan ibarətdir ki, şəhərlərdə bu proseslər daha əhatəlidir. Məhz buna görə də qəsəbələrin tədqiqində onun nəzəri-metodoloji əsasları şəhərlərlə eynilik təşkil edərək (xüsusilə kiçik şəhərlərdə) urbanizasiya prosesinin təsiri altında inkişaf edir və vahid şəhər məskənlərini yaradır.

Qəsəbələrin inkişafı prosesində istehsalın, xidmət sahələrinin proqnozlaşdırılması və bunların həyata keçirilməsi üçün tədbirlərin görülməsi, bu proseslərlə bağlı məsələlərin nizamlanmasına təkan verir. Cəmiyyətin idarə edilməsi şəhər tipli yaşayış məntəqələrinin tədqiqat işlərinin aparılması, mürəkkəb iqtisadi və sosial proseslərin qiymətləndirilməsini tələb edir.

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı» (2004-2008, 2009-2013), «Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə və 2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları» çərçivəsində həyata keçirilən tədbirlər (sənaye və kənd təsərrüfatı istehsalının genişləndirilməsi, ekologiya və təbii sərvətlərdən istifadə, yol təsərrüfatı və nəqliyyat, elektrik enerjisi, istilik və qaz təchizatı, rabitə xidmətlərinin yaxşılaşdırılması, əhalinin təhlükəsizliyi, sosial müdafiə və s.) şəhər və qəsəbələrin inkişafına öz müsbət təsirini göstərməkdədir.

Azərbaycanda qəsəbələrin yaranma səbəbləri müxtəlifdir. Belə ki, əksər qəsəbələrin yaranması və inkişafı ayrı-ayrılıqda təbii şəraitlə, təbii ehtiyatlarla, kənd təsərrüfatının inkişafı ilə bağlıdırsa, Abşeronda isə qəsəbələr əsasən iki amilin təsiri altında formalaşmışdır.

Azərbaycanın digər regionlarının qəsəbələrindən fərqli olaraq öz genetik xüsusiyyətlərinə görə Abşeron qəsəbələrinin bir hissəsi köhnə kəndlər olub, sonradan öz funksiyalarını xeyli dəyişmiş, sonrakı inkişaf dövrlərində qəsəbələrə çevrilmişlər. Bir hissəsi isə neft və qaz ehtiyatlarının mənimsənilməsi nəticəsində boş yerlərdə yaranmışdır.

1960-cı illərdən sonrakı dövrdə Azərbaycan iqtisadiyyatı daha böyük inkişaf mərhələsinə qədəm qoydu. Bu dövr geniş miqyaslı sənaye tikintisi, aqrar-sənaye komplekslərinin yaranması və inkişafı, inzibati-ərazi bölgüsü sisteminin daha da təkmilləşdirilməsi, mənzil tikintisinin genişləndirilməsi ilə əlamətdar olmuşdur. Bu da 50-dən artıq qəsəbənin yaradılmasına səbəb olmuşdur. Həmin dövrdə 26 keçmiş qəsəbə şəhər statusu almışdır. Göründüyü kimi, qəsəbələr şəhərlər şəbəkəsinin genişləndirilməsi üçün mühüm ehtiyat mənbəyidir. 1992-ci ildə Azərbaycan Respublikasında 139 şəhər tipli qəsəbə mövcud idi. Onlarda 950 min nəfər əhali yaşayırdı ki, bu da respublikamızın bütün əhalisinin 13,6%-ni, o cümlədən, şəhər əhalisinin 24,5%-ni təşkil edirdi. Respublikanın bütün qəsəbələrinin əhalisinin 680 min nəfəri, yaxud 70,8%-i Bakı şəhər aqlomerasiyası hüdudlarında yaşayırdı.

Yeni qəsəbələrin yaranması və inkişafı Azərbaycanın bütün rayonları üçün xarakterik olmaqla respublikada 1990-cı ildən 85 qəsəbənin status almasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının qəsəbələri ümumi məskunlaşma sisteminin tərkib hissəsi olmaqla yanaşı ölkənin sosial-iqtisadi həyatında da mühüm rol oynayırlar.

Qəsəbə məfhumu respublikamızda yeni şəhər yaşayış məntəqəsi tipi kimi sovet hakimiyyəti dövründə meydana gəlmişdir. Bu adda yaşayış məntəqələrinə keçmiş SSRİ respublikalarından başqa dünyanın digər ölkələrində rast gəlinmir. Qeyd etmək lazımdır ki, bu tip məskənlər yeni olsa da, Azərbaycanın (xüsusilə Abşeronun) kəndlərinin bir hissəsi faktiki olaraq qəsəbələr funksiyası daşıyıblar.

Azərbaycanda Böyük Vətən müharibəsinə qədər 60 qəsəbə mövcud idisə, onlardan əksəriyyəti (36 qəsəbə) Abşeron iqtisadi rayonunun tərkibinə daxil idi. Qalan qəsəbələr isə digər iqtisadi rayonların payına düşür. 1946-1970-ci illərdə 73 qəsəbə, 1971-1991-ci illərdə 28 qəsəbə, 1991-ci ildən sonra isə (müstəqillik dövründə) 85 qəsəbə yaranmışdır.

Hər bir qəsəbənin yaranması Respublikanın Ali Qanunverici orqanı tərəfindən rəsmiləşdirilir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin 17 iyun 1959-cu ildə təsdiq etdiyi Əsasnaməyə görə, respublikada qəsəbələr sırasına əhalisinin sayı 2 min nəfərdən az olmayan və ümumi əhalisinin 60%-ni fəhlələr, qulluqçular və onların ailə üzvləri təşkil edən yaşayış məntəqələri aid edilirdilər. Lakin təcrübədə, bir çox qəsəbələrin əhalisinin sayı rəsmən müəyyən olunmuş hədlərdən xeyli aşağıdır.

Respublikada bu gün də qəsəbə əmələgəlmə prosesi davam edir və potensiala malik olan yaşayış məntəqələri qəsəbələrə çevriləcək, tənəzzülə uğrayan qəsəbələr isə ləğv olunacaqlar, yəni bu davamlı bir prosesdir.

Bu gün ölkə qəsəbələrinin əhalisi 0,1 min nəfərdən (əsasnamədə bu göstərici 2 min nəfərdən az olmamalıdır) 75 min nəfər arasında tərəddüd edir. Bəzi qəsəbələrdə (xüsusilə kənd rayonları ərazilərində yerləşən qəsəbələrdə)

əhalisinin məşğuliyyətində və daşıdıqları funksiyalarda köklü dəyişikliklər baş verərək onların qəsəbə kimi fəaliyyətini sual altına qoyur. Bunları nəzərə alaraq, qəsəbələr yenidən ekspertiza olunmalı, onlarda qəsəbə statusunun qalıb qalmaması məsələsinə yenidən baxılmalıdır.

Ərazinin mənimsənilməsi mürəkkəb tarixi proses olub, təbii şərait, məhsuldar qüvvələr və texniki tərəqqinin inkişaf səviyyəsi ilə bilavasitə bağlıdır. Elmi-texniki tərəqqi inkişaf etdikcə müxtəlif təbii şəraitə malik olan daha geniş ərazilər istehsal dövriyyəsinə və məskunlaşma sahəsinə daxil edilmişdir.

Təbii şərait tarixən əhalinin məskunlaşmasına və yaşayış məntəqələrinin yerləşməsinə öz mənfi və müsbət təsirini göstərmişdir. Bu baxımdan Azərbaycanın qəsəbələrinin ərazi üzrə yerləşməsi çox hallarda təbii şəraitlə əlaqəli olub. Respublika qəsəbələrinin müəyyən ərazilərdə sıxlığı və ya seyrəkliyi bilavasitə təbii şəraitlə bağlıdır.

Təbii şəraitlə bağlı Gəncə-Qazax, Aran iqtisadi rayonlarında qəsəbələr daha sıx yerləşir. Bu da iqtisadi rayonlarda əlverişli relyefin, iqlimin və zəngin təbii ehtiyatların olması ilə əlaqədardır.

Əhalisi çox olmayan qəsəbələr isə Şəki-Zaqatala, Kəlbəcər-Laçın və Dağlıq Şirvan iqtisadi rayonlarında mövcuddur. Bu da bu rayonların ərazisinin dağlıq yamaclarda yerləşməsi və burada meyilliyin çox olması, relyefin, iqlimin nisbətən əlverişsiz olması ilə bağlıdır. Orta və yüksək dağlıq ərazilərdə, Qobustan, Ceyrançöl, Şirvan və Muğan düzlərinin bəzi ərazilərində əhali çox seyrək məskunlaşır.

Azərbaycan qəsəbələrinin funksional təsnifatı ilə yanaşı aşağıdakı genetik tipləri də ayırmaq olar:

2013-cü ildə Azərbaycan əhalisinin ümumi sayı 9356,5 min nəfər olub, ümumi əhalisinin 4966,2 min nəfəri (53,1 %) şəhərlərdə və onlardan 1480,8 min nəfəri (16 %) qəsəbələrdə məskunlaşmışdır.

Respublikamızda şəhər əhalisinin 28,4 %-i qəsəbələrdə cəmləşmişdir. İqtisadi rayonlar üzrə əhalinin ümumi sayı (Bakı şəhər aqlomerasiyası daxil olmadan) 7192,3 min nəfər təşkil edir ki, bu da iqtisadi rayonlar üzrə qəsəbələrin əhalisinin ölkə əhalisinə nisbəti 5,8 %-dir. Respublikada olan 262 qəsəbələrin əhalisinin sayı 3 min nəfərə qədər 176, 3-5 min nəfərə qədər 23, 5-10 min nəfərə qədər 27, 10-20 min nəfərə qədər 17 qəsəbə, 20-50 min nəfərə qədər 15 qəsəbə və 50-100 min nəfərə qədər 4 qəsəbə mövcuddur.

Əhalisinin sayı çox olan Abşeron iqtisadi rayonu (180,2 min nəfər), Aran iqtisadi rayonu (108,6 min nəfər) və Gəncə-Qazax iqtisadi rayonudur (68,9 min nəfər).

Azərbaycanda mövcud olan 262 qəsəbənin 59-u Bakı şəhərinin, 49-u Gəncə–Qazax iqtisadi rayonun və 40-ı Yuxarı Qarabağ iqtisadi rayonunun payına düşür.

Azərbaycanda qəsəbələrin başlıca xüsusiyyəti kənd inzibatı rayonlarında

kiçik, Bakı şəhəri ətrafında isə iri qəsəbələrin üstünlük təşkil etməsidir.

**A** – öz inkişaf istiqamətini xeyli dəyişdirmiş qədim qəsəbələr;

**B** – öz inkişaf istiqamətini az dəyişdirmiş qədim qəsəbələr;

**C** – yerli təbii ehtiyatlardan istifadə olunması əsasında yaranan yeni qəsəbələr;

**D** – əlverişli iqtisadi-coğrafi mövqeyinə görə kəndlərdən törəmiş yeni qəsəbələr;

**E** – qaçqın və köçkünlər üçün inşa edilmiş yeni qəsəbələr.

Qəsəbələrin funksional-genetik tipləri haqqında konkret məlumat almaq olar. Azərbaycanda mövcud olan 262 qəsəbənin 60-ı 1920-1945-ci illərdə, 73-ü 1946-1970-ci illərdə, 28-i 1971-1991-ci illərdə və 101 qəsəbə isə 1991-ci ildən (müstəqillik illərində) sonra yaranmış və öz genetik tiplərini müəyyənləşdirmişlər.

Ölkə qəsəbələrinin 144-ü genetik tipinə əlverişli iqtisadi-coğrafi mövqeyinə görə kəndlərdən törəmiş qəsəbələrdir. Öz profilini xeyli dəyişdirmiş qədim qəsəbələr – 29, öz profilini az dəyişdirmiş qədim qəsəbələr – 41, yerli təbii ehtiyatlarından istifadə olunması əsasında yaranan qəsəbələr – 16 və qaçqın və köçkünlər üçün inşa edilmiş yeni qəsəbələr isə 32 olmuşdur. Ümumiyyətlə, respublika ərazisində yaranmış bir çox qəsəbələr müstəqillik illərinə təsadüf edilir. Azərbaycan qəsəbələri öz genetik tiplərinə görə keçici xarakter daşıyan dinamik bir prosesdir. Ona görə də qəsəbələr inkişaf səviyyəsindən asılı olaraq öz profilini təsnifat cədvəlində daim dəyişmiş və gələcəkdə də dəyişəcəkdir.

Respublikada əmək ehtiyatlarından səmərəli istifadə edilməsində əmək qabiliyyətli əhalinin təsərrüfat sahələri üzrə düzgün paylanması mühüm məsələdir.

Regionlarda əmək ehtiyatlarından istifadə edilməsində mühüm məsələlərdən biri əmək qabiliyyətli əhalinin maddi nemətlər istehsal edən və maddi nemətlər istehsal etməyən sahələrdə çalışmasını nizamlamaqdan ibarətdir. Maddi nemətlər istehsalında əmək məhsuldarlığı yüksək olduqca əmək qabiliyyətli əhalinin maddi nemətlər istehsal etməyən sahəyə keçməsinə şərait yaranır. Bu məsələdə təsərrüfat sahələrinin mexanikləşməsi, işçi qüvvəsinin texniki silahlanması, yüksək səviyyəli kadr hazırlığı xüsusi əhəmiyyət kəsb edir.

Əmək ehtiyatlarından səmərəli istifadə edilməsinin və əmək ehtiyatlarının yayılmasının ərazi fərqlərini araşdırmaq daim aktual sayılan problemlərdəndir. Bununla yanaşı, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi qadın və kişi əməyindən istifadə edilməsini nizamlamadan mümkün deyildir. Lakin əmək ehtiyatlarından istifadə edilməsində ən səciyyəvi cəhətlərdən biri də hələlik şəxsi və həyətyanı sahələrdə çalışanların olmasıdır. Doğrudur, həmin sahədə çalışanların ümumi sayı azdır. Lakin əmək ehtiyatlarının potensial imkanları araşdırılarkən, əksəriyyəti qadınlardan ibarət olan əmək ehtiyatlarını nəzərə almaq zəruridir. Buna görə də qəsəbələrdə əmək tutumlu sənaye

sahələrinin yaradılması məqsədə uyğun olardı.

Bazar iqtisadiyyatına keçidlə bağlı qəsəbələrin özünəməxsus problemləri meydana çıxır və öz həllini tapmalıdır. Birincisi, qəsəbələr ölkənin ümumi məskunlaşma sisteminin tərkib hissəsi olmaqla, ölkənin iqtisadi və sosial həyatında əhəmiyyətli rol oynamaları ilə əlaqədar qəsəbələrin məskunlaşması konsepsiyası hazırlanıb həyata keçirilməlidir.

İkincisi, qəsəbələrdə fəaliyyətdə olan və müəyyən səbəblərdən fəaliyyətini dayandıran müəssisələrin əksəriyyəti bugünki standartlara və tələbata cavab vermir. Ona görə də bu qəbildən olan qəsəbələr yenidən qurulmalı və bazar iqtisadiyyatı tələblərinə cavab verməlidir.

Ümumiyyətlə, qəsəbələrin inkişafının istiqamətlərini müəyyənləşdirərkən, onların bütün potensial imkanları yenidən müəyyən edilməlidir. Ona görə də yaşayış məntəqələrinə investisiya qoyularkən onların potensial imkanları nəzərə alınmalıdır.

Azərbaycanda mövcud olan 262 qəsəbədən 139-nun əhalisinin sayı 2 min nəfərdən azdır, bu da yaşayış məntəqəsinə qəsəbə statusu verilməsinə ziddir (ölkədə qəsəbələrin sayı əhalinin sayı 2 mindən az olmamalıdır). Buna görə də mövcud normativ sənədlərində dəyişikliklər edilməli və yaxud digər tədbirlərin həyata keçirilməsi bu uyğunsuzluğu aradan qaldırmalıdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008, 2009-2013). Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı. Bakı: Nurlan, 2004, 2009
2. Azərbaycanın əhalisi. ARDSK-2013. Bakı, 2013
3. V.Ə. Əfəndiyevin redaktəsi ilə Azərbaycanın iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti, 2010, 470 s.
4. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda qəsəbə. Bakı,1913, 220 s.
5. Əfəndiyev V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri. Bakı: Bakı Universiteti, 2002, 395 s.


## ОСОБЕННОСТИ РАЗВИТИЯ ПОСЕЛКОВ АЗЕРБАЙДЖАНА


**В.А.ЭФЕНДИЕВ**


**РЕЗЮМЕ**


В статье анализируются факторы влияющие на формирование и развитие посёлков Азербайджана на современном этапе. Определяя особенности развития посёлков и решение существующих проблем, даются рекомендации по их территориальному размещению.



**Ключевые слова:** Азербайфиал, посёлки, расселение, население, Государственная Программа

## DEVELOPMENT FEATURES OF AZERBAIJANI SETTLEMENTS

**V.A.AFANDIYEV**

**SUMMARY**

The paper analyzes the factors influencing the formation and development of the modern settlements in Azerbaijan. Defining the features of development of settlements and the existing problems, recommendations for their territorial location have been provided.

**Key words:** Azerbaijan, settlement, village, resettlement, State Proqram

*Redaksiyaya daxil oldu: 18.03.2014-cü il*
*Çapa imzalandı: 12.05.2014-cü il*